**Üzeyir Hacıbəyov**
**Vaxtımız Yoxdur**
**Felyeton**

*Mənbə: Üzeyir Hacıbəyovun Ev Muzeyi, Bakı. Direktor Səadət Qarabağli.*
*Üzeyir Hacıbəyovun irsinə həsr olunmuş HAJİBEYOV.com saytı*
*© 2001 Azerbaijan İnternational*
*Mətni yığan: Fəridə Sadıxova*
*Vebmaster: Arzu Ağayeva*

- İndi nə deyirsiniz? Bu iş bizə lazımdır ya yox?
- Əlbəttə, lazımdır. Biz gərək bu işi nə tövr olsa, əmələ gətirək.
- Deməli, hamınız razısınız və qol qoyursunuz.
- Əlbəttə, əlbəttə, bizim min cürə dərdlərimiz, min cürə əngəllərimiz var. Lazımdır ki, yığışıb danışaq, lazım olan işləri görək. Lazım olan əmələ mübaşir olaq. Çalışaq, vuruşaq, əlimizdən gələn qədər iş görək. Özgə millətlərə baxanda, onların hər işləri qayda ilə, özləri də yerli-yaraşıqlı olduğu halda, biz həmişə pozğunluq içində qalıb, işlərimizi düzəltməyə iqdam eləmirik. Odur ki, hər bir barədə pərişan olan və pəsməndə adlanan bizik. Şübhəsiz ki, bu iş bizim üçün vacibdir və onu əmələ gətirmək bizim borcumuzdur...
- Çox gözəl, çox əcəb. İndi işə başlayaq. Əvvəlcə, bir komissiya seçmək lazımdır ki, bu işin proqramını düzəltsin, belədirmi?
- Düzdür!
- Bu proqramı düzəltmək üçün bir beş-altı nəfər adam kifayətdir. Biri sən.
- Kim, mən?! Allah haqqı mənim vaxtım yoxdur. Məni yazma, Cəfəri yaz.
- Kimi, məni? Atamın goru haqqı mənim də vaxtım yoxdur. Təvəqqə edirəm ki, məni bağışlayasınız. Bu barədə Həsən cənabları yaxşıdır.
- Mən? Allah mənə lə'nət eləsin hərgah başımı qaşımağa macal varsa. Mənim barəmdə, bu iş üçün Mürsəl cənablarını yazın.
- Mən?! Yə'ni məni? Getdiyim Xorasan belimi sındırsın əgər sutkada üç saat yatıramsa. İş boğazıma qədər yığılıbdır, təvəqqə edirəm ki, məni əfv edəsiniz. Vaxtım yoxdur. Nə üçün Əhməd əfəndini yazmırsınız?

- Həzərat, bilirəm inanmayacaqsız, amma siz öləsiniz, özüm ölüm ki, kəsrəti-şüğldən o qədər başım qarışıqdır, indiyə qədər obed eləməmişəm. İstər inanın, istər inanmayın, amma məni bağışlayın.
- Balam, bu hələ işin başıdır ki, siz hamınız qaçırsınız. Bəs sonra iş çoxalanda nə olacaq? Pəh, pəh, pəh! Hələ özümüzü də məzəmmət edirik ki, işlərimiz pərişandır, özgələri bizdən qabaqdadır. Görünür ki, sizin hünəriniz elə boş-boş danışmaqdır.
- İndi biz nə edək? Nə çarə qılaq? Vaxtımız yoxdur.
- Xeyr, a, vaxtınız var, amma ruhunuz yoxdur, iş görməyə hünəriniz yoxdur. Ürəyinizdə təpər yoxdur...
Ravi belə rəvayət edir ki, bir kərə gecə saat beşdə bir evin yanından keçirdim. Gördüm ki, pəncərələrindən işıq gəlir. Dedim ki, aya, görəsən bu evdə nə vacib iş var ki, indiyə qədər yatmayıb, vaxt sərf ediblər. Başımı uzadıb qulaq verdim, amma bir şey başa düşə bilmədim. Ancaq qulağıma içəridən bu cürə səslər gəlirdi: "Verirəm... böyüyündən... xalı. Bir abbası... Sabunçu. Kombinatsiya..."
Bu cürə sözlərdən bir şey başa düşə bilmədim. İstədim bir az da qulaq asam, heyf ki, vaxtım yox idi...

---

Üzeyir Hacıbəyov, Seçilmiş Əsərləri. Azərbaycan dilində (kiril qrafikası). Səh. 453-454.
Bakı, Yazıçı-1985.